

# Konstitusiya Məhkəməsinin kollektivi Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunmasının 27 illiyi ilə əlaqədar, noyabrın 11-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın məsul əməkdaşları Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və görkəmli həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri qoyulub.

AZƏRTAC

# Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 27 il keçir

*"44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib, yumruq kimi birləşərək düşməni doğma torpaqlarımızdan qovdu. Bütün Azərbaycan xalqı birlik, iradə göstərmişdir. Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub yaradırıq, şəhərlərimizi, kəndlərimizi bərpa edirik və həm də şanlı Zəfərimizlə fəxr edirik. Eyni zamanda, fəxr edirik ki, biz - bu torpaqların sahibləri bu torpaqlara yenidən həyatı qaytarırıq".*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**(əvvəli 5-ci səhifədə)**

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə gənclər arasında işbirliyindən bəhs edərkən Məhkəmədə keçirilən Könüllü Proqramını xüsusi olaraq qeyd etmək lazımdır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində 2019-cu ildən keçirilən bu Proqrama gənclərin marağı kifayət qədər böyükdür. Könüllülər Məhkəmənin Aparatının müxtəlif şöbə və sektorlarında təcrübə keçir, Məhkəmənin Plenum iclaslarının təşkil edilməsi, eyni zamanda, vətəndaşların qəbulu prosesində bilavasitə iştirak edir, sorğu, müraciət və şikayətlərin öyrənilməsi vasitəsilə əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi mexanizmi ilə yaxından tanış olurlar.

Bu gün müasir müstəqil Azərbaycan dövlətinin memarı ulu öndər Heydər Əliyevin ideyaları əsasında sabitlik, inkişaf və tərəqqi yolu ilə inamla addımlayan dövlətimiz inkişafının tarixi dönüş mərhələsindədir. Əminliklə deyə bilərik ki, ölkəmiz ildənilə güclənərək müstəqillik tarixinin ən qüdrətli dövrünü yaşayır.

Dövlət müstəqilliyimizin bərpasından ötən müddət ərzində ən taleyüklü hadisə isə şübhəsiz ki, torpaqlarımızın işğaldan azad edilməsi oldu. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun erməni işğalçıları üzərində qazandığı hərbi-siyasi Zəfər xalqımızın çoxəsrlik tarixinin ən şanlı hadisəsidir. 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və işğal altındakı torpaqlarımızın qaytarılması ilə nəticələnən Vətən müharibəsində müzəffər Azərbaycan Ordusu tarixi Qələbə qazandı, döyüş meydanında böyük rəşadət və şücaət nümayiş etdirdi. Azərbaycan əsgəri nümunəvi igidliyi ilə dövlətimizin ərazi bütövlüyünü cəsarətlə və şərəflə qorudu.

Qeyd edilməlidir ki, ərazi bütövlüyünün bərpa olunması və işğal olunmuş Azərbaycan torpaqlarının düşmən əsarətindən azad edilməsinin ilkin təməli Ulu Öndər tərəfindən qoyulub. Belə ki, Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması ümummilli lider Heydər Əliyev siyasətinin başlıca istiqamətlərindən biri olub. Məhz ulu öndər Heydər Əliyevin qətiyyəti nəticəsində 1994-cü ilin may ayının 12-də atəşkəs haqqında razılaşma əldə olunub, nəticədə hərbi əməliyyatlar dayandırılıb, ordu quruculuğu üçün şərait yaradılıb.

Ulu öndər Heydər Əliyev hər bir görüşündə, çıxışında Ermənistan-Azərbaycan münaqişəsinin əsl mahiyyəti, hərbi təcavüz nəticəsində ölkəmizin düşdüyü ağır vəziyyət, doğma yurdlarından qovulan bir milyona yaxın qaçqın və məcburi köçkünün ağır şəraitdə yaşadıqları barədə dünya ictimaiyyətini məlumatlandıraraq, bu münaqişənin ədalətli həllinə çalışıb. Ümummilli Liderin işğal olunmuş torpaqlarımızın azad edilməsi istiqamətində göstərdiyi səylər təkcə diplomatiya ilə məhdudlaşmırdı. Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi müstəqil dövlətin milli ordu quruculuğunun əsaslarını yaratmış və Silahlı Qüvvələrin peşəkar, yeni nəsil mütəxəssislərlə, qabaqcıl texnika ilə təchiz edilməsi istiqamətində mühüm addımlar atıb.

Ulu öndər Heydər Əliyev 1994-cü il 9 aprel tarixində Füzuli rayonunda əsgərlər qarşısında çıxışı zamanı qeyd edib: "...biz gərək heç kimə arxayın olmayaq, öz torpaqlarımızı özümüz müdafiə edək, ərazilərimizi işğalçılardan təmizləyək. Mən inanıram ki, biz ordumuzun gücü ilə torpaqlarımızı azad edəcəyik".

Əsası Ümummilli Lider tərəfindən qoyulan hərbi quruculuq prosesi daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildi, müzəffər Ordumuz ən qabaqcıl və nümunəvi ordulardan birinə çevrildi. Bu, Ordumuzun döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, kadr potensialının möhkəmləndirilməsi, yüksəkixtisaslı, peşəkar zabit korpusunun formalaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində aparılan ardıcıl və məqsədyönlü siyasət sayəsində mümkün oldu.

Bu tarixi Qələbənin qazanılmasında Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti, diplomatik məharəti, qətiyyəti, Ordumuzun hərbi qüdrəti, Azərbaycan əsgər və zabitlərinin peşəkarlığı, cəsurluğu, qələbə əzmi, rəşadəti, döyüş əhval-ruhiyyəsi və xalqımızın böyük əzmi həlledici rol oynadı. Müzəffər Ali Baş Komandanın xalqa müraciətində qeyd etdiyi kimi, 44 günlük Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi idi.

İkinci Qarabağ müharibəsinin Azərbaycanın qalibiyyəti ilə nəticələnməsini şərtləndirən əsas amillər ölkə daxilində yaşanan həmrəylik, Azərbaycan dövlətinin hərbi üstünlüyü, eyni zamanda, bu sahədə atılan diplomatik addımlar oldu. Qırx dörd gün davam edən Vətən müharibəsində Azərbaycan təkcə döyüş meydanında deyil, həm də diplomatiya sahəsində qalib gəldi. Bu Qələbə istisnasız olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diplomatiyasının böyük uğurudur.

Ölkənin siyasi rəhbərliyinin müharibə dövrü ərzində xarici dövlətlərin kütləvi informasiya vasitələri ilə effektiv işi müharibə haqqında həqiqətlərin dünyaya çatdırılmasına, o cümlədən informasiya cəbhəsində də qələbə qazanılmasına imkan yaratdı. 44 günlük müharibə dövründə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 30-a yaxın xarici media orqanına müsahibə verərək, torpaqlarımızın 30 ilə yaxın işğal altında olduğunu, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icra edilmədiyini, həmçinin müharibənin başlanma səbəblərini dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Beləliklə, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yenilməz siyasi iradə və qətiyyəti, Ordumuzun gücü və xalqımızın dövlətimizin başçısı ətrafında bir məqsəd uğrunda səfərbərliyi Vətən müharibəsində Azərbaycanın parlaq Qələbəsini təmin etdi.

Bu yaxınlarda, Azərbaycan növbəti siyasi-hərbi qələbəsini qeyd etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 2022-ci il avqustun 26-da bütün Azərbaycan xalqını bir daha sevindirərək bu haqda məlumat verdi: "Bu gün, avqustun 26-da biz - Azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!"

Sentyabrın 21-də isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Laçın şəhərində Zəfər rəmzi olaraq Azərbaycan Bayrağını ucaltdı. Laçın şəhərinin, eləcə də Zabux və Sus kəndlərinin işğaldan azad edilərək Ordumuzun tam nəzarəti altına götürülməsi mühüm strateji əhəmiyyətə malik hadisə olmaqla, regionda yeni mərhələnin başlanması kimi xarakterizə olunur.

Dövlətimizin 44 günlük Vətən müharibəsində tarixi Qələbə qazanmasına baxmayaraq, Ermənistan tərəfinin hərbi təxribatları müharibədən sonrakı dövrdə də davam edib. Belə ki, cari il sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin bir neçə istiqamətində genişmiqyaslı təxribat törədib, Ermənistan silahlı qüvvələrinin diversiya qrupları müxtəlif istiqamətlərdə ərazilərin və təminat yollarının minalanmasını həyata keçirib. Eyni zamanda, Azərbaycan Ordusunun mövqeləri müxtəlif çaplı silahlardan intensiv atəşə tutulub. Nəticədə Silahlı Qüvvələrimizin şəxsi heyəti arasında itkilər olub, hərbi infrastruktura ziyan dəyib.

Ermənistan tərəfindən bu cür təxribatların törədilməsi üçtərəfli Bəyanatın şərtlərini, beynəlxalq hüquq normalarını pozmaqla, sağlam dialoq mühitinin yaradılmasına, ümumilikdə regionda təhlükəsizliyin təmin olunmasına olduqca mənfi təsir göstərir.

44 günlük Vətən müharibəsindən bəhs edərkən, belə bir çətin dövrdə qardaş Türkiyə dövlətinin Azərbaycana dəstəyi xüsusi vurğulanmalıdır. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin ən yüksək səviyyədə olduğu bütün dünyaya məlumdur. Müharibənin ilk günlərindən Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi, Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan açıq bəyanatlar səsləndirərək, bu müharibədə Türkiyənin hər zaman dövlətimizin və xalqımızın yanında olduğunu bildirdi.

Məlum olduğu kimi, 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının və Türkiyə Respublikasının prezidentləri tərəfindən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalanıb. Şübhəsiz ki, Azərbaycan-Türkiyə münasibətlərinin növbəti təzahürü olan Şuşa Bəyannaməsi müstəsna tarixi və siyasi əhəmiyyətə malikdir.

Bu tarixi Bəyannamənin imzalanmasının dövlətimiz üçün olduqca vacib 15 İyun - Milli Qurtuluş Günü və Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin isə xüsusi mənası var. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu məqama toxunaraq qeyd edib: "Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir".

Ortaq maraqların qorunmasında imkanların birləşdirilməsi, həmçinin regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin əlaqələndirilməsi sözsüz ki, hər iki ölkənin həm regional, həm də beynəlxalq rolunu və çəkisini artırır.

Şuşa Bəyannaməsi ilə Azərbaycan-Türkiyə birliyi, dostluğu və qardaşlığının yeni dövrü başladı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır.

Cari ilin oktyabrın 20-də Zəngilan şəhərinin işğaldan azad olunmasının ikinci ildönümünə təsadüf edən Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində qardaş Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın da iştirak etməsi xüsusilə sevindirici haldır. Azərbaycanın və Türkiyənin dövlət başçılarının Cəbrayıl şəhərində mətbuata birgə bəyanatlarla çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iki dövlət arasındakı münasibətlərə toxunaraq Türkiyə-Azərbaycan birliyinin bölgədə çox önəmli bir amil, sülh, sabitlik amili olduğunu, həmçinin İkinci Qarabağ savaşından sonra Türkiyə-Azərbaycan qardaşlığının, birliyinin daha da yüksək pilləyə qalxdığını qeyd etdi.

Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərində məhkəmə-hüquq sahəsindəki əlaqələr xüsusi yer tutur. Qeyd etmək lazımdır ki, Azərbaycanın və Türkiyənin Konstitusiya məhkəmələri arasında da sıx işgüzar əlaqələr və səmimi münasibətlər mövcuddur. Bu cür yaxın münasibətlərin növbəti təzahürü olaraq, Vətən müharibəsi dövründə Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslan Ermənistanın Azərbaycana qarşı hərbi təxribatını dəfələrlə pisləyib, Məhkəmənin kollektivi adından Azərbaycan xalqının yanında olduğunu vurğulayıb.

Qeyd edilməlidir ki, Vətənin müdafiəsində iştirak edən şəxslərin, əlilliyi müəyyən olunmuş hərbi qulluqçuların və şəhid ailələrinin maddi-sosial vəziyyətinin yaxşılaşdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın daim diqqət mərkəzindədir. Bu kateqoriyadan olan insanların, onların ailə üzvlərinin maddi durumunun yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən bütün zəruri addımlar atılır. Məlum olduğu kimi, bu məqsədlə 2020-ci il dekabrın 8-də dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fondunun yaradılması haqqında Fərman imzalanıb. Bu Fondun yaradılması cənab Prezidentin əhalinin sosial təminatının və rifah halının daha da yaxşılaşdırılması siyasətinə xüsusi diqqət yetirdiyini bir daha sübut edir.

Bu gün işğaldan azad olunan ərazilərin yenidən qurulması prosesi yüksək sürətlə aparılır. Biz bu ərazilərdə həyata keçirilən yeniliklərin şahidiyik. Qarabağda dağıdılan bütün kənd və şəhərlər tamamilə yenidən qurulur. Vətən müharibəsindən ötən müddət ərzində Qarabağda kompleks şəkildə bərpa və yenidənqurma istiqamətində genişmiqyaslı işlər aparılır. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün təminatçısı olan dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəal iştirakı ilə azad edilmiş ərazilərdə zəruri infrastrukturun yaradılması və digər bütün istiqamətlər üzrə bərpa prosesi ilə bağlı çoxşaxəli işlər həyata keçirilir. Bu ərazilərdə aparılan bərpa işləri, bir sıra nəinki yerli, eyni zamanda, beynəlxalq əhəmiyyətli infrastruktur obyektlərinin, hava limanlarının inşası və istifadəyə verilməsi Azərbaycan Respublikası ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi ilə bağlı konstitusiya prinsipinin təmin edilməsinin əyani göstəricisidir.

**Vətən müharibəsindən ötən müddət ərzində Qarabağda kompleks şəkildə bərpa və yenidənqurma istiqamətində genişmiqyaslı işlər aparılır. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün təminatçısı olan dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəal iştirakı ilə azad edilmiş ərazilərdə zəruri infrastrukturun yaradılması və digər bütün istiqamətlər üzrə bərpa prosesi ilə bağlı çoxşaxəli işlər həyata keçirilir. Bu ərazilərdə aparılan bərpa işləri, bir sıra nəinki yerli, eyni zamanda, beynəlxalq əhəmiyyətli infrastruktur obyektlərinin, hava limanlarının inşası və istifadəyə verilməsi Azərbaycan Respublikası ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi ilə bağlı konstitusiya prinsipinin təmin edilməsinin əyani göstəricisidir.**

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev noyabrın 8-də Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə çıxışı zamanı qeyd etmişdir: "Biz təkcə ərazi bütövlüyümüzü yox, milli qürurumuzu bərpa etdik".

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 2021-ci il 7 iyul tarixli Fərmanı ilə Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsü təsdiq edilərək, işğaldan azad edilmiş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Qeyd edilməlidir ki, Qarabağda həyata keçirilən bərpa və yenidənqurma tədbirlərinin daha səmərəli təşkilində yeni iqtisadi rayonlaşmanın xüsusi əhəmiyyəti var. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması dünya və region səviyyəsində Azərbaycanın strateji rolunun artması, bu iqtisadi rayonların dirçəlməsi, eyni zamanda, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, ölkəmizin rəqabət qabiliyyətinin və eyni zamanda, siyasi və iqtisadi qüdrətinin daha da artmasına şərait yaradacaq.

Quruculuq işlərinin aparılması ilə yanaşı, işğaldan azad edilmiş torpaqlara əhalinin qayıtması, bu prosesin təşkil edilməsi Qarabağın inkişafı ilə bağlı qarşıda duran ən vacib istiqamətlərdən biridir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə reallaşdırılmalı olan beş Milli Prioritet göstərilib. Nəzərdə tutulan prioritetlərdən biri məhz işğaldan azad olunmuş ərazilərə böyük qayıdışdır.

İşğaldan azad olunmuş torpaqlara əhalinin qayıdışı məsələsinin növbəti illər üçün ölkənin sosial-iqtisadi inkişafına dair prioritetlərdən biri olaraq müəyyən edilməsi bu məsələnin ölkə rəhbərliyinin diqqət mərkəzində olduğunu bir daha təsdiqləyir. Müasir standartlara cavab verən yeni yol infrastrukturunun qurulması, kənd və şəhərlərin bərpası, burada ən müasir texnologiyaların və innovasiyaların tətbiqi, insanların yaşayışı üçün bütün zəruri şəraitin yaradılması, kənd təsərrüfatının tamamilə yenidən qurulması onu göstərir ki, bu torpaqlara əhalinin qayıtması üçün real zəmin yaranır.

Cari ilin mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində 200 evdən ibarət "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi baş tutub. Bu tədbir bütövlükdə Azərbaycan üçün olduqca mühüm və əlamətdar olmaqla, işğaldan azad edilmiş torpaqlarımıza Böyük Qayıdışın ilk addımlarından oldu. Mərhələli şəkildə həyata keçirilən bu proses cari ilin iyul ayında başlamış, sentyabrın 10-da sakinlərin köçürülməsinin ikinci mərhələsi başa çatmışdır. Ümumilikdə Ağalı kəndinə birinci mərhələdə 41 ailə olmaqla 201 nəfər, ikinci mərhələdə isə 25 ailə olmaqla 125 nəfər köçürülüb.

Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının cari ilin oktyabrın 14-də Astanada keçirilən iclasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qarabağ ermənilərinin taleyi məsələsinə də toxunaraq qeyd edib: "Qarabağın erməni əhalisinin hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyasına uyğun olaraq təmin ediləcək".

Dövlətimizin başçısının mühüm əhəmiyyət kəsb edən bu bəyanatı Azərbaycan Respublikasının Əsas Qanununun hüquqi qüvvəsinin ölkəmizin bütün ərazisində şərtsiz tətbiq edildiyini və əbədi olaraq qüvvədə olacağını nümayiş etdirməklə, eyni zamanda, Konstitusiyada və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş fundamental hüquq və azadlıqların irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən və digər xüsusiyyətlərindən asılı olmayaraq hər kəsə mənsub olduğunu bir daha göstərir.

Bu gün 30 ilə yaxın öz yurdlarından məcburi köçürülmüş vətəndaşlarımızın bu torpaqlara qayıtması həm də onların Əsas Qanunda təsbit edilmiş hüquqlarının, o cümlədən sərbəst hərəkət etmək, özünə yaşayış yeri seçmək, təhlükəsiz yaşamaq kimi hüquqlarının tam şəkildə təmin edilməsinə şərait yaradır.

Məlum olduğu kimi, oktyabrın 6-da Çex Respublikasının paytaxtı Praqa şəhərində "Avropa siyasi birliyi" Zirvə Toplantısının açılış plenar iclası keçirildi. Avropa ölkələri arasında əməkdaşlığın inkişaf etdirilməsi, həmçinin Avropa qitəsinin təhlükəsizliyinin gücləndirilməsi məqsədilə yaradılan bu platformada ümumilikdə 44 ölkənin dövlət və hökumət başçıları iştirak edib. Zirvə Toplantısı çərçivəsində "Avropa qitəsində sülh və təhlükəsizlik" mövzusunda keçirilən dəyirmi masada çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycanın Ermənistanla sülh müqaviləsinin imzalanması təklifi ilə çıxış etdiyini, həmçinin bu sülh müqaviləsinin əsasının Azərbaycanın təklif etdiyi beş prinsipin təşkil etdiyini bildirib.

Eyni zamanda, Praqada "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Fransa Respublikasının Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşünün sonunda qəbul edilən Bəyanatda Ermənistan və Azərbaycanın BMT Nizamnaməsinə və 1991-ci il Almatı Bəyannaməsinə sadiqliyini bir daha nümayiş etdirərək bir-birinin ərazi bütövlüyü və suverenliyini tanıdığı bildirilib.

Əminliklə demək olar ki, bu cür mötəbər tədbir səviyyəsində belə nəticələrin əldə edilməsi siyasi, hüquqi, tarixi baxımdan mühüm hadisə olmaqla Azərbaycan dövlətinin və şəxsən cənab Prezidentin növbəti diplomatik qələbəsidir.

Bu gün dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə inkişafının yüksək tərəqqi ilə xarakterizə olunan, keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. Əsasını ulu öndər Heydər Əliyevin qoyduğu inkişaf konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müasir çağırışlar nəzərə alınmaqla daha da təkmilləşdirilib, dövrün tələblərinə uyğun islahatların aparılması, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə mütərəqqi dəyişikliklərin edilməsi nəticəsində yüksək inkişaf dinamikasına nail olunub. Həyata keçirilən səmərəli dövlət idarəçiliyi, təhlükəsizlik və sabitliyin gücləndirilməsi istiqamətində görülən tədbirlər müstəqilliyimizin daha da möhkəmləndirilməsini, eyni zamanda, beynəlxalq aləmdə dövlətimizin nüfuzunun artmasını təmin edib.

Ölkəmiz hər il mötəbər, beynəlxalq miqyaslı konfranslara və digər tədbirlərə, idman yarışlarına, musiqi və incəsənət festivallarına layiqincə ev sahibliyi edir. Bu cür tədbirlər öz növbəsində Azərbaycanın zəngin tarixi və mədəni irsinin, multikultural dəyərlərinin təbliğinə şərait yaradaraq, ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da yüksəldir. Bu gün Azərbaycan bir sıra beynəlxalq layihələrin, yüksək səviyyəli ikitərəfli və çoxtərəfli görüşlərin nəinki iştirakçısı, həm də təşəbbüskarı qismində uğurla çıxış edir. Bu cür beynəlxalq əhəmiyyətli tədbirlər təkcə paytaxt Bakıda deyil, eyni zamanda, müxtəlif regionlarımızda keçirilir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 yanvar tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2022-ci il "Şuşa İli" elan edilib. Bu əlamətdar hadisə mühüm tarixi, siyasi və eyni zamanda, mədəni əhəmiyyət kəsb edir. Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən yerli və beynəlxalq əhəmiyyətli tədbirlər regionda, eyni zamanda, beynəlxalq aləmdə böyük əks-səda yaradır. Bu tədbirlər arasında cari ilin aprelində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı xüsusi vurğulanmalıdır. Bu Qurultayın olduqca böyük tarixi mənası var. Qurultayda Azərbaycan diasporu qarşısında yeni vəzifələr qoyuldu, xaricdə yaşayan azərbaycanlıların növbəti illərdəki fəaliyyəti üçün istiqamətlər müəyyənləşdirildi.

Dünya Azərbaycanlılarının V Qurultayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev geniş və dərin məzmunlu nitqlə çıxış edərək vurğulayıb: "...bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz".

Ölkəmizdə müşahidə edilən davamlı inkişaf və tərəqqi, xalqımızın rifah halının daha da yüksəlməsi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması məhz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, hərtərəfli düşünülmüş daxili və xarici siyasəti nəticəsində mümkün olub.

Əminliklə vurğulamaq istərdim ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi demokratik, hüquqi dövlət quruculuğu prosesində səlahiyyətləri çərçivəsində bundan sonra da fəal iştirak edərək, Əsas Qanunun aliliyinin təmin olunması, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsi işində üzərinə düşən məsuliyyətli və şərəfli missiyanı layiqincə yerinə yetirəcək.

Fürsətdən istifadə edərək, Azərbaycan xalqını Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi adından Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun bizə bəxş etdiyi 8 Noyabr - Zəfər Günü, 9 Noyabr - Dövlət Bayrağı Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə təbrik edir, xalqımıza xoşbəxt və firavan həyat arzulayırıq.

**Fərhad ABDULLAYEV,**
**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri.**